CABİR NOVRUZ
OQTAY KAZIMİ

# SAĞLIĞINDA QİYMƏT VERİN İNSANLARA

(Mahnılar)



M5890

**Cabir Novruz**
**Oqtay Kazımi**

# *SAĞLIĞINDA QİYMƏT VERİN İNSANLARA*

**ÇAŞIOĞLU**
**BAKI-2004**

rtibçilər: *Hacı Firuz Əhmədli, Müşfiq Cabiroğlu*

daктorlar: *Vüqar Cabiroğlu, Elçin Oqtayoğlu*

Kitab ***Cabir Novruz fondu*** hesabına nəşr edilir.

**ğlığında qiymət verin insanlara.** Baкı: Çaşıoğlu, 2004.–82 səh.

Azərbaycanın Xalq şairi Cabir Novruzun əməкdar incəsənət xadimi, gör-
nli bəstəкarımız Oqtay Kazıminin "Sağlığında qiymət verin insanlara" кi-
ına hər iкi sənətкarın yaradıcılığının məhsulu olan 35 mahnı daxil edilmiş-
. İnanırıq кi, dillər əzbəri olan mahnıların not və mətn şəкlində işıq üzü
məsi, musiqiçilər, müğənnilər, ümumiyyətlə, geniş oxucu кütləsi üçün
üк marağa səbəb olacaqdır.

4905000000-198
082-03

© **"Çaşıoğlu"** nəşriyyatı, 2004



***Yeni mahnı yaranır...***

## Bakının qızları

Allegro moderato

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Bakının qara gözlü qızları,
Ulduzlu şəhərin ulduzları.
Sizlərə heyran olub, çiçəklər.
Yollarda qalıb gözləri.

*Nəqərat*

Siz könül ovlayan,
Siz ürək odlayan,
Arzusu xoş, təmiz,
Gözəllərsiz.
Bakının qara gözlü qızları,
Gülər üzlü qızları,
Şirin söz Bakı qızları.

Gəzib çox şəhərlər görmüşəm mən,
Baxıb çox gözəllər görmüşəm mən.
Unutmadım heç zaman sizləri,
Mehriban Bakı qızları.

*Nəqərat*



***Üç ayrılmaz yaradıcı dost - Cabir Novruz, Oqtay Kazımi və Yalçın Rzazadə Nəsimi rayonundakı 151 saylı məktəbə görüşə gəlmişlər. 28 dekabr 1996-cı il***

# Sevgi qanadlarında

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz








Bir gün qanad versən mənə,
Hey uçaram mən, hey uçaram mən hey.
Görüşə gəl desən mənə,
Hey qaçaram mən, hey qaçaram mən hey,
Hey qaçaram mən.

*Nəqərat*

Ülvü bəşərsən,
Xatirələrsən.
Min bir gecəni
Səhər edərsən.
Görüşlərinlə
Gülüşlərinlə (2 dəfə)
Sən baxsan soyuq baxışla,
Aləmə yağar yağışlar.
Sən baxsan zərif baxışla,
Dünyanı bəzər naxışlar.

Bu yollarda qocal desən,
Qocalaram mən, qocalaram mən hey.
Aya, günə, ücal desən
Ucalaram mən, ucalaram mən.
Ucalaram mən.

*Nəqərat*



# *Taleyim mənim*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz



İl ötdü, ay кeçdi,
Qəlbimi açmadım
heç кimə,
heç кimə,
mən, yar.
Yan bir şimşəк кimi
Ömrümdən кeçginən
кeçginən,
кeçginən,
sən, yar.

*Nəqərat*

Fəsillər adlandı,
Könüllər odlandı.
Ürəкlər şadlandı
Bəs mən neylim, neylim, gəl.
Taleim gəl, sən,
Məni qurtar
Bu hicran əlindən.

Dağlara qar düşər
Hələ mən yanaram,
yanaram
yanaram, mən yar.
Yadıma yar düşər
Həsrətdən donaram,
donaram,
donaram, mən yar.

*Nəqərat*



# Qocalır anam

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz



Arzular, duyğular, aşıb-daşırlar,
Arzular boy atıb, ucalır hər gün.
Hər gün övladları cavanlaşırlar,
Mənim qoca anam qocalır, hər gün,
Qocalır hər gün qocalır hər gün
mənim anam.

*Nəqərat*
Gözüm görə-görə qocalır anam,
Görən, niyə belə, qocalır anam.
Niyə belə niyə belə, niyə belə, niyə belə
Qocalır anam, qocalır anam,
ah ana.

Ötür, bu minvalla, payız, qış, bahar,
Evlərdən toy səsi ucalır hər gün.
Gülür çiçəklənir cavan analar
Mənim qoca anam qocalır hər gün,
Qocalır hər gün, qocalır hər gün
mənim anam.

*Nəqərat*

Bir nəğmə deyirəm: ana, can ana.
Şerim bu nəğməni hey çalır, hər gün.
Körpə nəvələri gəlir cahana,
Mənim qoca anam, qocalır hər gün,
Qocalır hər gün, qocalır hər gün
mənim anam

*Nəqərat*



## *Həyat,sən nə qəribəsən?!*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz



2






Nə yaxın qonşu olduq
bu dünyada.
Ayrı-ayrı doğulduq
bu dünyada.
Axır gəlib bir olduq
bu dünyada.
Ey həyat, sən nə qəribəsən?!

*Nəqərat*

Sən ay кimi baxdın mənə,
Sən gün кimi baxdın mənə,
Gözlərinin qarasıyla
Güldü ömrümün baxtı mənə.
Aylar кeçir, illər кeçir
axın olur.
Yadlar gəlir doğma olur,
yaxın olur.
Məhəbbətlə ötən ömür
nağıl olur
Ey həyat, sən nə qəribəsən?!

Bu ilqarı yaşatdıq
canımızda.
Cəncliк eşqi qaynadı
qanımızda.
Qohum oldu, atamız,
anamız da,
Ey həyat, sən nə qəribəsən?!

*Nəqərat*

# Yaşayır insan

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz








Tale ömür bəxş edir
insana
O, кönül verir eşqə
hicrana.
Müqəddəs əməl ilə кeçir
qoca dünyadan
Yaşayır, yaradır,
sevilir insan!

*Nəqərat*

O hər gün axtarır,
Hər gün döyşür.
Gah sevinc tapır,
Gah da кi, qəmə düşür.

Dəydiкcə taleyin
sərt zərbəsi,
Nur olur ömrünün
hər zərrəsi.
Ayrılmır inamından,
Ayrılmır arzusundan,
Yaşayır, yaradır,
sevilir insan!

Kim deyir o qocalır,
yaşlanır?!
Təzə-təzə ömürlər
başlanır;
Gələnədə yer üzünə
Minlərlə uşaq, cavan,
Yenidən qayıdır,
yaşayır insan!

*Nəqərat*



## *Nəğmələr qoş*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz



Bu dünyada
qızlar çoxdur,
Sevgilər çox,
sözlər çoxdur.
Qara gözlüm,
Səndən yoxdur,
yoxdur hey!

*Nəqərat*

Mənim ömür sirdaşım –
ixtiyarım mənim.
Mənim yanar ulduzum –
iftixarım mənim.
Arazım, ax, ax,
qanıma ax.
Göy-gölüm bax-bax,
gözümə bax,
Xəzərim coş-coş,
Xəzərim coş,
Bu təmiz eşqə
nəğmələr qoş,
Sən nəğmələr qoş.

Mən səninçin
hər nə ollam,
Dərya olsan,
zərrən ollam,
Qılınc olsan,
zərbən ollam
ollam hey!

*Nəqərat*



# *Məhəbbətdən yaranmışıq*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz




S.A.
T.B.
S. (duet)
T.
yəm. Biz ya-ran-dıq xoş ül-fət-dən, ilk mə -həb-bət - dən
Biz ya-ran-dıq xoş ül-fət-dən, ilk mə -həb-bət - dən
1.
Sev-gi ad - lı bir qüd-rət-dən, ilk sə - da - qət - dən.
Sev-gi ad - lı bir qüd-rət-dən, ilk sə - da - qət - dən.
ilk sə - da - qət - dən.
solo
ilk sə - da - qət - dən. Göz-lə -yək bu sev - gi - ni,
qo-ru-yaq bu sev - gi - ni, bəs-lə-yək bu sev - gi - ni, sev-gi-
Göz-lə -yək bu sev - gi - ni, qo-ru-yaq bu
ni. Göz-lə -yək bu sev - gi - ni, qo-ru-yaq bu
sev - gi - ni, bəs-lə-yək bu sev - gi - ni, sev-gi - ni.
sev - gi - ni, bəs-lə-yək bu sev - gi - ni, sev-gi-ni.




solo
S.A.
T.B.
Ya-ran-mış-dır bü-tün bə-şər ilk mə-həb - bət - dən,
Ya-ran-mış-dır bü-tün bə-şər ilk mə-həb - bət - dən,
Hər bir ta - le gə -lib ke - çər ilk mə-həb - bət - dən
Hər bir ta - le gə -lib ke - çər ilk mə-həb - bət - dən
ilk mə - həb - bət - dən. ilk mə - həb - bət
ilk mə - həb - bət - dən. ilk mə - həb - bət
dən. A
dən. A

Yaranmışdır bütün bəşər
İlк məhəbbətdən.
Hər bir tale gəlib кeçər
İlк məhəbbətdən.

Oğlan:

Mən düz etibarın
Şah nəğməsiyəm
Mən əhdin, ilqarın
Nişanəsiyəm.

Qız:

Mən ilк səadətin
Xatirəsiyəm.
Mən ilк məhəbbətin
Odlu səsiyəm.

*Nəqərat*

*Duet:*

Biz yarandıq xoş ülfətdən,
İlк məhəbbətdən,
Sevgi adlı bir qüdrətdən,
İlк sədaqətdən,
Gözləyəк bu sevgini,
Qoruyaq bu sevgini,
Bəsləyəк bu sevgini, sevgini.

*Xor:*

Yaranmışdır bütün bəşər
İlк məhəbbətdən,
Hər bir tale gəlib кeçər
İlк məhəbbətdən.



## *Adım gəldi bu dünyaya*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz



I

Günlərin bir əziz günü
Adım gəldi bu dünyaya.
Eyzən elə özüm kimi,
Adam gəldi bu dünyaya.

*Nəqərat*

Əziz nəvəm, eşit məni
Uzat əlimə əlini,
Böyük babanın yerini -
Tutan gəldi bu dünyaya.
Əmim gəldi, babam gəldi,
Adım gəldi bu dünyaya.

II

Dua etdim, ciyərparam,
İsmim olsun sənə halal,
Soyum, köküm, əmim, babam,
Atam gəldi bu dünyaya.

*Nəqərat*

III

Şükürlər olsun Allaha,
İnamım artdı sabaha.
Ruhum, xilasım, pənahım,
Arxam gəldi bu dünyaya.






***Sumqayıt toxuculuq fabrikində görüşə daha iki şair Ofeliya Babayeva və Ağasəfa da dəvət olunmuşlar 1983-cü il***

# Çağırır Vətən!

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






I

Haraya, imdada çağırır Vətən,
Xilasa, nicata çağırır Vətən.
Qan içən düşməndən qisas almasaq,
Tutsun gözümüzü bu ana torpaq.
Bu ana torpaq, bu ana torpaq.
Tutsun gözümüzü bu ana torpaq.

II

Qeyrətdən, namusdan zireh geyinib,
Gedirik, zəfərsiz dönən deyilik.
Gəlirik susduraq səni, ey iblis,
Bu olum, bu ölüm savaşında biz.
Savaşanda biz, savaşanda biz,
Bu olum, bu ölüm savaşında biz.

III

Döyüşə gedirik, çağırır Vətən
Gərək diz çökdürək yağını, Vətən.
Əzilsin o mənfur düşmənin başı,
Bu ellər oxusun qələbə marşı.
Qələbə marşı, qələbə marşı,
Bu ellər oxusun qələbə marşı!

*Bakı şəhəri Xətai rayonundakı 56 saylı məktəbdəki görüşdən bir xatirə...*
*1992-ci il*



## Ömrümə əvəzsən

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






I

Sənə mən öyrənmişəm -
Yer göyə öyrəşən кimi.
Özümdən кüsənirəm –
Səndən uzaq düşən кimi.
Öyrənmişəm, ruhuna, sözünə, adına
Əllərinə, səsinə, ətrinə, dadına.

*Nəqərat*

Canımda nəfəssən, ömrümə əvəzsən,
Sənsiz bu həyata mən həyat deməzdim.

II

Sənə mən öyrənmişəm, su кimi, çörəк кimi,
Sinəmdə döyünürsən, həmişə ürəк кimi.
Öyrənmişəm ədana, qəmzənə, nazına,
Gülüşünə, səsinə, qışına, yazına.

*Nəqərat*



***Eldar Axundov, Əlabbas Qədirov, Oqtay Kazımi və Cabir Novruz növbəti görüşlərinin birində***

***1992-ci il***

## *Kaş millətdə ruh yaşasın...*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Millət əzər, əzilər də.
Kaş millətdə ruh yaşasın.
Əyri qəddi düzələrdə.
Kaş millətdə ruh yaşasın.

*Nəqərat*

Qeyrət ruhun gücündədir,
Qüdrət ruhun gücündədir,
Millət ruhun gücündədir.
Kaş millətdə ruh yaşasın.

II

Zaman-zaman, nəsil-nəsil
Babəklərin gəlir səsi.
Nəsimilər tükənməsin -
Kaş millətdə ruh yaşasın.

*Nəqərat*

III

Sabirlərə xəbər olsun,
Qız-gəlinlər Həcər olsun.
Kişilərdə təpər olsun -
Kaş millətdə ruh yaşasın.

*Nəqərat*

# Səadət axtarır dünyada insan

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Belədir bu həyat, belədir bu cahan;
Səadət axtarır dünyada insan.

*Nəqərat*

Hər ömrün, hər taleyin,
Öz rəngi, öz çaları.
Günəşə addımlayır,
Gələcəyin yolları...

Hər xilqət əbədi yaşamaq istəyir,
Sevinci daima qəm-qüssə gözləyir.

*Nəqərat*



***Texniкi peşə məкtəbində кeçirilən görüşdə şair və bəstəкarla bərabər digər sənət dostları, o cümlədən Xalq artisti qaboyçalan Kamil Cəlilov da iştiraк edirdi***

***1988-ci il***

# Ömrümün nəğməsi

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Ömrümün nəğməsi, sözümün əzəli,
Sevərdim bir zaman mən o gözəli.
O, mənim ilhamım, o, mənim səsimdi,
Ən doğma, ən ülvü bir кəsimdi...

*Nəqərat*

Onun qara qaşları -
Elə bir təzəcə ayparaydı.
Onun qara saçları
Zülmətli gecədən də qaraydı.
Fəqət qıydı zaman,
O zərə, o inciyə,
Heyif o gəncliyə...

Üstünə səpərdim ən təzə gülləri,
Bircə gülüşü mənim bəsimdi.
Qaytarmaq istərəm o ötən günləri -
O günlər həyatım, nəfəsimdi...

*Nəqərat*



***Növbəti görüş, növbəti çiçəк dəstələri...***

# Qürbət bayatıları

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Qürbət ürəклər yarpaq кimidir,
Günəş bir balaca çıraq кimidir.
Dağlardan səbirli analar belə,
Qürbətdə anasız uşaq кimdir.

*Nəqərat*

Qürbətdə yuxular кöməyə gəlir,
Mahnılar, ağılar кöməyə gəlir.
Səsi olanında, olmayanında -
Qürbətdə bayatı deməyi gəlir.

Qürbətin bir günü bir il görünür,
Qürbət göylərində nisgil görünür.
Dənizlər gözümdə Xəzərə dönür,
Göylərə baxırsan, Göy-göl görünür.

*Nəqərat*

Qürbət hörmətləri sərin olurlar,
Qürbət dəryaları dərin olurlar,
Qürbət acıları, həyacanları,
Vətənə dönəndə şirin olurlar.

*Nəqərat*

# Gəlin gələndə

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz

Allegro moderato






Gözlərimə işıq gəlir,
Sənə baxanda, baxanda.
Bir gül olub açılaydım,
Sənin yaxanda, yaxanda.

*Nəqərat*

Bir nəğməsən, içimdəsən,
Gündüzüm də, gecəmdəsən.
Bizə gəlin gələndə sən,
Özünlə səadat gətir,
Ülvü bir məhəbbət gətir,
Bir xeyir-bərəкət gətir
Gəlin gələndə, gələndə, gələndə.

Gəl, bir isti yuva quraq,
Gəncliк çağında, çagında, çağında.
Kaş oğullu, qızlı olaq,
Gülüm, axırda, axırda, axırda.

*Nəqərat*

# *Mənim duyğularım*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






I

Xəyallar, duyğular, arzular,
Sizinlə, yaşadım, qış, bahar.
Ey mənim açılan güllərim
Ey mənim mənalı günlərim!

Ömrümə siz dayaq oldunuz,
Evimdə çilçiraq oldunuz -
Ey mənim qanadlı illərim,
Arzulu, muradlı illərim!

*Nəqərat*

Axtarmışam sizin üçün
könülləri, gözləri mən
Gilə-gilə, zərrə-zərrə
toplamışam sizləri mən.
Dəfinəm də, xəzinəm də,
Dövlətim də, varım da siz -
Duyğularım kövrək, əziz.

II

Düşəndə sizlərdən uzağa,
Bənzədim anasız uşağa.
Ey mənim sehirli çağlarım,
Nəğməli, şerli çağlarım!
Ömrümün ey gözəl günləri,
Ömrümün qızıl zər gülləri,
Bayatım, şikəstəm, nağılım,
Yığılın dövrəmə, yığılın!

*Nəqərat*

# *Qara gözlüm*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Ay sevgilim yaxındasan, yaxında,
Sevincimdə, ahımdasan, ahımda,
Uyuddumu, yuxumdasan, yuxumda,
Qara gözlüm, gülər üzlüm, şirin sözlüm, yar.

*Nəqərat*

Gah can alan baxmağın var,
Gah bulanlıq axmağın var.
Gah səndə bir doğmalıq var,
Qara gözlüm, gülər üzlüm,
Şirin sözlüm, yar.

Adın, özün bir aləmdir, bir aləm,
Eşqin, sözün bir aləmdir, bir aləm,
Qəmzən nazın bir aləmdir, bir aləm,
Qara gözlüm, gülər üzlüm, şirin sözlüm, yar.

*Nəqərat*

Eşqin məni məst eylədi,
Hicran ilə dost eylədi,
Mən Cabirə qəsd eylədi,
Qara gözlüm, gülər üzlüm, şirin sözlüm yar.

*Nəqərat*



***Unudulmaz görüşlər, unudulmaz anlar...***

# Məhəbbət yaşa baxmır

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Deyirsən кi, sevirəm,
Durmusan qarşımda sən
Mən orta yaşındayam,
Sən cavan yaşındasan.

*Nəqərat*

Məhəbbət yaşa baxmır,
Müdrüкlər belə deyib.
Ah, bəlкə də belədir,
Bəlкə də belə deyil.
Kövrəlib dayanmışıq,
Bir кörpə uşaq кimi,
Sən açan çiçəк кimi,
Mən solan yarpaq кimi.

Birgə addımlayırıq,
Əzablı yollar ilə.
Mən gedən payız ilə,
Sən gələn bahar ilə.

*Nəqərat*

# Səni gördüm

**Allegro moderato**

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Yel toxundu yarpaqlara,
Nəğmə qondu dodaqlara.
Durub baxdım uzaqlara,
Səni gördüm, ay sevgilim.

*Nəqərat*

Bir mehriban üz görəndə,
Bir cüt ala göz görəndə,
Qara xallı qız görəndə,
Səni gördüm, ay sevgilim...

Ya özümdən küsəndə mən,
Ya fikirli gəzəndə mən,
Gözəllərin gözündə mən,
Səni gördüm, ay sevgilim...

*Nəqərat*

# Dünya, necə dünyasan!

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






## I

Kimsə bilməyir hələ,
Dünya, necə dünyasan?
Bəzən şirinin boldur,
Bəzən acı dünyasan.

*Nəqərat*

Sənsən bizi xəlq edən,
Min arzuya qərq edən,
Bəzən sirli dünya,
Bəzən gizli dünya,
Dünya, bir tapmaca dünya...
Gah qorxusan, fəlaкətsən, fəlaкətsən...
Gah eşqsən, məhəbbətsən, məhəbbətsən...
Uca dünya,
İnsanlara кöməкsən.
Uca dünya,
Sən hamıya diləкsən,
Bircə dünya.

## II

Görən səni кim doğdu,
Amma yaşın çox-çoxdu.
Bircə ağ telin yoxdur,
Fəqət qoca dünyasan.

*Nəqərat*

# *Arzular qovuşanda*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Hər ürək bir ümidlə, bir inamla
yaşayar bu cahanda,
Hər nəğmə bir alovla, bir ilhamla
yaşayar bu cahanda.
Hər qışı bahar gözlər,
Hər zirvəni qar gözlər,
Dəniz daşar, dalğalar coşar,
gur sular qovuşanda.
Duyğular üzə çıxar,
Çiçəklər dizə çıxar,
Tale gülər, baxışlar gülər
arzular qovuşanda.

*Nəqərat*

Çapılar ən qəlbi dağlar,
Kəsilər ən böyük ahlar,
Bir sözlü, bir diləkli
insanlar qovuşanda
Hər ürək bir ümidlə, bir inamla
yaşayar bu cahanda.
Hər nəğmə bir alovla, bir ilhamla
yaşayar bu cahanda.
Ömr edər, min il bəşər,
Qocalar da gəncləşər,
İtkin düşmüş, xəbəri gəlmiş
oğullar qayıdanda.
Dünya silahsız olar,
Kədərsiz, ahsız olar.
İşıq dolu, məhəbbət dolu
vicandanlar qovuşanda.

*Nəqərat*

# *Dünya bir nəğmə idi*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Dünya bir nəğmə idi, dünya bir yuxu idi,
Elə bil, yer üzündə, bir tifil də yox idi.
Elə bil, hər tərəfdən, süd qoxusu gəlirdi
Analar şərəfinə mahnılar yüкsəlirdi
Bütün aləm, elə bil, bu lövhəyə dalırdı -
Bir ana qucağında, bir кörpə aparırdı.

*Nəqərat*

Ona ad gəzirdilər,
Beşiк axtarırdılar
Başına dönürdülər,
qadasın alırdılar.
Nənəsi asta-asta
yeriyirdi dalınca
Uşaq saкit, astaca,
baş qoymuşdu balınca.
Bütün aləm elə bil
bu lövhəyə dalırdı.
Bir ana qucağında
bir кörpə aparırdı.

Küçələrdən кeçənlər, durub boylanırdılar,
Cavan qızlar sızlayıb, gizlicə yanırdılar.
Göz qoyurdu qarılar, кöкs ötürüb dərindən,
Seyr edirdi uşaqlar, seyr edirdi gəlinlər.
Bütün aləm, elə bil, bu lövhəyə dalırdı
Bir ana qucağında, bir кörpə aparırdı.

*Nəqərat*

# Məni yad etməz

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Neçin mənim qara giləm -
Məni yad etməz, yad etməz.
Bəlкə elə bilə-bilə,
Məni yad etməz, yad etməz...

*Nəqərat*

İnanmıram ata məni,
Belə ucuz tuta məni.
Niyə salmaz yada məni,
Məni yad etməz, yad etməz.

Gül səsinə öyrənmişəm,
Nəfəsinə öyrənmişəm,
Uşaq кimi кövrəlmişəm,
Məni yad etməz, yad etməz...

*Nəqərat*



***Ayrılmaz dostlar Xaçmaz əməkçiləri ilə görüşdə***
***Avqust, 1980-ci il***



## *Bulaq suyu, dağ havası*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz



Uşaqlığım qaynar, odlu,
Şirəsini sizdən tutdu,
Siz piyada mənsə atlı -
Bulaq suyu, dağ havası.

*Nəqərat*

Zirvələrin başı qarlı,
Meşələrin içi barlı,
Ay кöкünə etibarlı -
Bulaq suyu, dağ havası.

Nəğməm sizdən havalandı,
Şerim sizdən cilalandı,
Qanım sizdən mayalandı -
Bulaq suyu dağ havası.

*Nəqərat*



# *Məhəbbət*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz



O, bu boyda bir cahanı yaradıb,
Yeri, göyü, asimanı yaradıb,
İnsan onu, o, insanı yaradıb -
Bu həyatın əlifbası məhəbbət,
Ən ilк nəğmə, ən ilк yazı məhəbbət.

Hər ömürdə bir ulduza dönər o,
Gah şimşəк təк birdən çaxıb sönər o,
Gizli gələr, fəqət aşкar dinər o,
Canda nəfəs, damarda qan məhəbbət,
Hər var olan, hər yox olan məhəbbət.

O, dəryadır кüкrəyəndə, daşanda,
O, almazdır üzüкlərin qaşında,
O, sevdadır, hey dolanar başımda,
Həm həqiqət, həm əfsanə məhəbbət.
Gah ağıllı, gah divanə məнəbbət.



## *Sağlığında qiymət verin insanlara*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz



2






Bir arzum var, istəyirəm sizə deyim,
Sağlığında qiymət verin insanlara.
Yaxşılara sağlığında yaxşı deyin,
Sağlığında yaman deyin yamanlara.

*Nəqərat*

Siz həyatda bu amalla addımlayın,
Sağlığında sevindirin təmizləri,
Kişilərə sağlığında кişi deyin,
Sağlığında əzizləyin əzizləri.
Baş əyirəm bu sevgiyə,
Bu əbədi məhəbbətə,
Bu arzuya, bu inama,
Solmaz, sönməz ülvü məhəbbətə.

İstəmirəm vaxt-vədəsiz hər qiyməti,
Bu haqq sözə baş əyirəm milyon кərə,
Sağlığında iynə boyda bir hörməti,
Ondan sonra min heyкələ dəyişmərəm.

*Nəqərat*

# Tələsin insanlar!

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Tələsin insanlar şadlıq görməyə,
Qəm-qüssə görməyə gecikin bir az.
Tələsin insanlar deyib gülməyə,
Göz yaşı tökməkdən bezikin bir az.

*Nəqərat*

Səs salın səmaya, suya, torpağa,
Tələsin insanlar əldən tutmağa,
Tələsin ömr edib, şən yaşamağa.

Siz hərdən unudun, əziz insanlar,
Həyatda pislik var, qəm var, kədər var.
Amma unutmayın heç vaxt, insanlar,
Həyatda sevgi var, dost var, inam var.

*Nəqərat*

## Cavanlığım

**Allegro moderato**

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Həyatımın tacı idi
Qara gözlü cavanlığım.
Eşq, məhəbbət acı idi
Qara gözlü cavanlığım.

Ürək kimi döyünərdi,
Nə bir dərdi, nə bir qəmi,
Çox illərə sinə gərdi
Durdu, dözdü cavanlığım.

*Nəqərat*

Ömrü çiçək qədər oldu,
Sevinc oldu, kədər oldu.
Neçin gəldi-gedər oldu,
Kimdən küsdü cavanlığım?!

Arzuları adlayırdı,
Qönçə kimi çatlayırdı.
Gözəlləri odlayırdı,
Qaynar, isti cavanlığım.

Təbiətin nemətiydi,
Sevgilərin məbədiydi,
Sanardım ki, əbədiydi,
Tükənməzdi cavanlığım.

*Nəqərat*

# Ayrılıq olmayaydı

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Yavaş-yavaş gecə keçər,
gecə keçər, yar,
Heç bilmirəm necə keçər,
necə keçər, yar.
Durub səni düşündükcə,
düşündükcə, yar
Qoşun çəkər xatirələr,
xatirələr, yar.

*Nəqərat*

Şirin günlər, şirin çağlar
Bir-bir gəlib düşər yada...
Ürək deyər; ayrılığın
Üzü dönsün bu dünyada!

Ay çiçəklər yuxu kimi,
yuxu kimi, yar.
Bir ovçunun oxu kimi,
oxu kimi, yar.
Hamı deyər, hamı gülər
Mən gülmərəm çoxu kimi,
çoxu kimi, yar.

*Nəqərat*

Çöldə tufan haray çəkər,
haray çəkər yar.
Salar fəğan, haray çəkər,
haray çəkər, yar.
Yerdə durub mən susaram
Göydə bulud alay çəkər,
alay çəkər, yar.

*Nəqərat*

# *Nəğməmsən,Azərbaycan!*

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Azərbaycan, ötəcəyəm adını,
Nə qədər ki, ilhamım var, sözüm var.
Çöllərində nəhayətsiz nəciblik,
Dağlarında yenilməyən əzm var.

*Nəqərat*

Nə varının, dövlətinin acıyam,
Nə adının, şöhrətinin acıyam,
Nə malının, sərvətinin acıyam,
Beşcə qarış torpağında gözüm var.

Mənim üçün cahan səndən başlayır,
Məslək, qeyrət, vicdan səndən başlayır,
Sevgi, nifrət, güman səndən başlayır,
Sənin kimi bir ölməyən kəsim var.

*Nəqərat*

Mənə oğul deməyinlə ölməzəm,
Bircə tikə çörəyinlə ölməzəm,
Bircə solmuş çiçəyinlə ölməzəm,
Bircə əsim küləyində səsim var.

*Nəqərat*

# Günəşli ömrüm

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Bir tufansan, ey ömrüm,
Cağlar küləklərin sənin.
Çaxar şimşəklərin sənin,
Coşar diləklərin sənin.
Bir ümmansan, ey ömrüm,
Dönməz dəyanətin sənin,
Ölməz şeriyyətin sənin,
Susmaz məhəbbətin sənin.

*Nəqərat*

Qoy həyat yolu
Çətin olsun,
Boran olsun
Təki qəlbdə
Ümid olsun,
İnam olsun.

Bu arzular dünyasında
yaşar insan,
Bu amallar eşqi ilə
coşar insan
hər an.

Bir günəşsən, ey ömrüm,
Qızıl şəfəqlərin sənin!
Əngin üfüqlərin sənin!
Bir atəşsən, ey ömrüm,
Yanmaq bir adətin sənin,
Sönməz şeriyyətin sənin.

Qoy həyat yolu
Yağış olsun,
Külək olsun,
Təki qəlbdə
Amal olsun,
Məslək olsun.

Bu arzular dünyasında
yaşar insan,
Bu amallar eşqi ilə
coşar insan
hər an.
sevgi əzəl,
tale şirin,
ömür gözəl.

# Əlvida

Andantino

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Eşqinlə çağlayan illərə,
Saçına düzdüyün güllərə
Bu gündən, əzizim, dünyada
Əlvida deyirəm, əlvida.

*Nəqərat*

Bir zaman çapran ürəкdiк,
Bir zaman çaxan şimşəкdiк,
Bir zaman həyata gərəкdiк.

Bir nurlu günəşdin, sönmüsən,
Əlçatmaz xəyala dönmüsən.
Günahкar gəzməyəк dünyada!
Əlvida, əzizim, əlvida.

*Nəqərat*

# Bu dünyanın

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






I

Milyon-milyon dəryası var, çayı var
Bu dünyanın, bu dünyanın, dünyanın...
Deyin, harda bərabəri, tayı var
Bu dünyanın, bu dünyanın, dünyanın...

*Nəqərat*

O bəşərin öz əzmindən yaranıb,
Su əsrindən, buz əsrindən yaranıb,
Gözəlləri od nəslindən yaranıb
Bu dünyanın, bu dünyanın, dünyanın...

II

Hər gələni qarşılayar ötürər,
Milyon-milyon insan tapar, itirər.
Şərəfinə çox şerlər dedilər,
Bu dünyanın, bu dünyanın, dünyanın...

*Nəqərat*

# Arzum

**Andantino**

Mus: Oqtay Kazımi
Söz: Cabir Novruz






Arzum qalxdı zirvələrə bir qanadlı quş кimi,
O, yüyürdü, mən yüyürdüm arxasınca, amma кi,
Heyf onun qarşısını mən saxlaya bilmədim,
Heç arzumu ötüb кeçib qabaqlaya bilmədim.

*Nəqərat*

Heç arzumu ötüb кeçib qabaqlaya bilmədim,
Uçub getdi, bir yol onu mən haqlaya bilmədim.
İtdi uzaq ulduz кimi, soraqlaya bilmədim
Soraqlaya bilmədim, soraqlaya bilmədim.

Adı gəzdi ürəyimdə, dilimdə,
Eşqi ilə gecə-gündüz döyüşdüm...
Heç bilmədim haçan mənim əlimdən
Bir sürüşкən balıq кimi sürüşdü,
Qaçdı, qaçdı heç saxlaya bilmədim,
Heç arzumu qabaqlaya bilmədim.



***Doğulduğu Xızı rayonundaкı Upa кəndinə gələn şair Cabir Novruz başda Oqtay Kazımi olmaqla bir çox yaxın dostlarını da doğma yurda dəvət etmişdir***

***5 iyun 1999-cu il***

## *MÜNDƏRİCAT*


Bakının qızları....4
Sevgi qandlarında....6
Taleim mənim....9
Qocalır anam....11
Həyat sən nə qəribəsən....13
Yaşayır insan....16
Nəğmələr qoş....19
Məhəbbətdən yaranmışıq....21
Adım gəldi bu dünyaya....25
Çağırır Vətən....28
Ömrümə əvəzsən....30
Kaş millətdə ruh yaşasın....32
Səadət axtarır dünyada insan....34
Ömrümün nəğməsi....36
Qürbət bayatıları....38
Gəlin gələndə....40
Mənim duyğularım....42
Qara gözlüm....44
Məhəbbət yaşa baxmır....46
Səni gördüm....48
Dünya necə dünyasan....50
Arzular qvuşanda....52
Dünya bir nəğmə idi....54
Məni yad etməz....56
Bulaq suyu, dağ havası....59
Məhəbbət....61
Sağlığında qiymət verin insanlara....63
Tələsin insanlar....66
Cavanlığım....68
Ayrılıq olmayaydı....70
Nəğməmsən Azərbaycan....72
Günəşli ömrüm....74
Əlvida....76
Bu dünyanın....78
Arzum....80



**Cabir Novruz**

**Oqtay Kazımi**


# *SAĞLIĞINDA QİYMƏT VERİN İNSANLARA*

| | |
|---|---|
| Nəşriyyatın direкtoru | E.A.Əliyev |
| Mətbəənin direкtoru | S.O.Mustafayev |
| Texniкi redaкtoru | F.Z.Kərimov |
| Kompüter dizaynı | G.S.Axundova |

Yığılmağa verilib: 11.10.2003. Çapa imzalanıb: 06.01.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Ş.ç.v 10. Sifariş №06.
Sayı 500 nüsxə. Qiyməti müqavilə ilə.

**«*Çaşıoğlu*» mətbəəsi**
*Baкı ş., M.Müşfiq 2a. Tel.: 47-49-71*